**● Ölməzliyə qovuşanlar**

# Vətən yolu sevgi yoludur

**İllərdir ki, dağ da, daş da, düşmən ayağı altında olan sinəsi yaralı torpaqlarımız da "qisas" deyib qeyrətli oğullarımızı döyüşə səsləyirdi. "Qisas qiyamətə qalmaz", - deyib müdriklər. Nəhayət, 2020-ci il sentyabrın 27-də azğın düşmənə layiqli cavab vermək məqsədilə Ali Baş Komandan "dəmir yumruğ"unu düyünləyib "yetər", - dedi. O andan xalq bir olub yumruğa döndü. Oğullarımız Hərbi Səfərbərlik İdarələrinin qarşısına axışıb döyüşmək, düşmənə layiq olduğu yeri göstərmək niyyəti ilə silaha sarıldılar.**

Analar döyüşə uğurladıqları övladlarının arxasınca göz yaşı tökmədilər, su səpdilər. Oğullar "Təki Vətən sağ olsun", - deyib cəsarətlə düşmənin üstünə yeridilər. Düşmənin üstünə gedənlərin sırasında Əli də var idi…

Əli Mehman oğlu Nağıyev 1991-ci il dekabrın 25-də Bakıda anadan olub. 91 saylı məktəbin 9-cu sinfini bitirdikdən sonra təhsilini 6 saylı Texniki Peşə Liseyində davam etdirərək sürücülük peşəsinə yiyələnib. 2010-cu ildə həqiqi hərbi xidmətə çağırılan Əli Nağıyev əsgərliyinin ilk aylarını Ağcəbədi rayonunda yerləşən "N" saylı hərbi hissənin minaatan bölüyündə keçirsə də, sonralar xidmətini Ağdam rayonunda davam etdirib. Həqiqi hərbi xidmətini başa vurduqdan sonra bir müddət Bakı şəhərində sürücülük edən Əli Nağıyev daha sonralar "Safir" hotelində işə düzəlib. İşlədiyi müddətdə işgüzarlığı, səmimiyyəti ilə seçilən Əli Nağıyev kollektivin dərin hörmətini qazanıb. 2020-ci ilin yayında düşmənin Tovuz rayonu istiqamətində torpaqlarımızı işğal etməyə cəhd göstərməsi Əli Nağıyevin də qəzəbinə səbəb olub. O, yaşadığı rayonun Hərbi Səfərbərlik İdarəsinə gedərək düşmənlə döyüşə getmək niyyətində olduğunu bildirib. Əli Nağıyev 2020-ci il sentyabrın 20-dən Pirəkəşküldə hərbi təlimlərə cəlb olunub. O, 27 sentyabrda səhər tezdən Ermənstan silahlı qüvvələrinin torpaqlarımıza xaincəsinə basqını zamanı Füzuli rayonunda düşmənlə qanlı savaşa girənlərin sırasında səf tutan qəhrəman oğullarımızdan biri olub.



Əli 44 günlük Vətən müharibəsində Füzuli, Cəbrayıl, Qubadlı, Xocavənd rayonlarının düşməndən azad olunması uğrunda gedən döyüşlərdə fədakarlıq göstərib. 20 oktyabr 2020-ci ildə Xocavənd uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olan Əli Nağıyev 22 oktyabrda Səbail rayonu Badamdar qəsəbəsində yerləşən Şəhidlər xiyabanında dəfn edilib. Vətən müharibəsində göstərdiyi qəhrəmanlıq dövlətimiz tərəfindən yüksək qiymətləndirilərək Əli Nağıyev ölümündən sonra "Xocavəndin azad olunmasına görə" və "Vətən uğrunda" medalları ilə təltif edilib.

Anası Lalə xanım Əli haqqında xatirələrini göz yaşı içində bizimlə bölüşür:

- Əli gözümün ilki idi. Mehriban, olduqca səmimi, sakit, dindirməsən danışmayan bir insan idi. Uşaq doğulanda, dünyaya gələndə ağlayar. Dünyaya gələndə də sakit, səssiz, küysüz gəlmişdi. Gəldiyi kimi sakit də getdi.

Əli mənim sağ əlim idi. Hər sözümü, hər dərdimi Əliyə deyə bilirdim. Hər işi onunla məsləhətləşirdim. Allah Əliyə Vətən sevgisini hər şeydən çox vermişdi. Əli məni hərəkətləri, davranışı ilə sanki bu günə hazırlayırdı. Şəhidlər haqqında maraqlı söhbətlər edirdi. "Şəhidin üzünə cənnətin 8 qapısı açıq olur", - deyirdi. Əli 2020-ci ilin yayında gedib könüllü yazılmışdı ki, Qarabağda döyüşsün. Səfərbərlikdən çağırış gələndə çox sevinirdi. 27 sentyabrda Füzuli rayonundan zəng vurmuşdu. Dedi ki, "Düşmənlə üz-üzəyəm. Döyüşürəm. Şəhid olsam, haqqını halal elə".

Əlini yola salanda məni qucaqlayıb demişdi ki, "Arxamca ağlama, mənimlə fəxr elə. Oğul Vətən üçün, vətəni qorumaq üçün dünyaya gəlir". Dedim ki, Əli, övlad da şirindir, Vətən də müqəddəsdir. Allah heç bir ananı seçim qarşısında qoymasın. Get, Vətəni qoru! Düşmən qarşısından qaçsan, südümü halal etmərəm. Əli dedi ki, "səndən bunu gözləyirdim".

İnsan ömrü yola bənzəyir. Vətən yolu isə sevgi yoludur. Sevərək yaşayanlar, sevilərək ölənlər ölməzlərdir.

*Elşən QƏNİYEV,*
*"Azərbaycan"*

Azərbaycan. - 2024.- 7 may, № 93.- S.11.